# *AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN*

# *2002-Cİ İL ÜÇÜN*

# *İLLİK HESABATI*

# TƏŞ KİLATİ İNKİŞ AF

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının 2010-cu illər üçün Strategiyası çərçivəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2003-2005-ci illər üçün Strateji iş planı hazırlanmışdır.

2002-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsində bəzi dəyişikliklər və əlavələr edilmişdir. Cəmiyyətin qanunvericilik bazasının gücləndirilməsi, onun Beynəlxalq normalara cavab verməsi və Cəmiyyətin işinin səmərəli qurulması məqsədilə Cəmiyyət Haqqında Yeni variantda Nizamnamə layihəsinin qaralama variantı hazırlanmışdır.

Cəmiyyətin yeni strukturu hazırlanmış, onun Regional Mərkəzlər və yerli komitələr arasında koordinasiya işinin yaxşılaşdırılması, onların üzvlərinin sayının artırıması sahəsində konkret işlər görülmüşdür.

Regional mərkəz və yerli komitələr üçün maliyyə, plan, təşkilati işlərə dair normativ sənədlərin, sirkulyar məktubların hazırlanması, onlara müntəzəm çatdırılması işi davam etdirilmişdir.

2002-ci ilin dekabr ayı üçün Cəmiyyətin üzvlərinin sayı 128,100 nəfərə kimi çatmışdır.

Müntəzəm olaraq Regional Mərkəz və yerli komitələrdən müvafiq plan, hesabatlar yığılmışdır. Regional Mərkəz və yerli komitələrin işinə köməklik məqsədilə regionlara 35 dəfə səfər edilmiş, onlara zəruri təşkilati köməklik göstərilmişdir.

83 rayon komitəsində hesabat-seçki konfransları keçirilmişdir.

# *FÖVQƏLADƏ HALLARA HAZIRLIQ*

Beynəlxalq Federasiyanın 2010-cu illər üçün strategiyasına əsasən Fövqəladə hallara hazırlıq prioritet sahə kimi qəbul edilmişdir.

Respublikanın bir neçə rayonunda ilk növbədə zavallı insanlara, təbii fəlakətlər nəticəsində zərər çəkmiş vətəndaşlara maddi və mənəvi yardım göstərilmişdir.

2002-ci ildə hava durumunun son dərəcə ağır olması ilə əlaqədar ilk növbədə şiddətli leysan yağışları, eləcə də yanğınlar nəticəsində bir sıra rayonda bir çox ailələrin evləri tam və ya qismən dağılmış, onlar ağır məhrumiyyətlərə düçar olmuşlar. Belə ailələrə müvafiq yardım göstərilmişdir.

Bakı, İsmayıllı, Oğuz, Şamaxı, Qusar bölgələrində yaşayan, son dərəcə imkansız 54 nəfərdən ibarət 13 ailəyə maddi yardım göstərilmişdir. Onlara məişətdə ən vacib olan zəruri avadanlıq, geyim, qida məhsulları və digər əşyalar verilmişdir.

Bakı və Sumqayıt şəhərlərində mobil könüllü dəstələri ilə bağlı müvafiq seminarlar keçirilmişdir. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Bakı nümayəndəliyinin üzvləri üçün «Mobil könüllü Dəstələr üçün Təlimat» kitabçasının prezentasiyası keçirilmişdir.

Bakı şəhər əhalisinin Fövqəladə hallara hazırlıq səviyyəsini yüksəltmək məqsədilə, 2002-ci ilin 24-25 iyul tarixində Bakı Mobil könüllü dəstəsi ilə Milli Cəmiyyətin müvafiq struktur bölmələrinin inteqrasiyasını tətbiq edərək, Bakının Mərdəkan qəsəbəsinin dəniz çimərliyində «Suda boğulma hallarının qarşısını almaq, ilk yardım, AİDS-lə mübarizə» mövzularında kütləvi xəbərdarlıq kampaniyası keçirilmişdir. Tədbir zamanı çimərlikdə istirahət edən şəxslərə bukletlər paylanmış, «İlk Yardım» vərdişləri geniş surətdə nümayiş etdirilmişdir.

Mobil könüllü dəstələrin işini fəallaşdırmaq istiqamətində həvəsləndirmə prinsiplərindən istifadə edərək, dəstə üzvlərinin idmana marağının artması məqsədilə, Lənkəran Regional Mərkəzinin könüllü dəstələrinə 15 ədəd idman geyim dəsti verilmişdir.

Proqram çərçivəsində «İmkansızlığın və İmkanlığın Qiymətləndirilməsi» adlı sorğu keçirilərək, onun dərc edilməsi mühüm hadisə kimi səciyyələndirilməlidir. Bu sorğu Beynəlxalq Federasiya tərəfindən ən yaxşı sorğu kimi qiymətləndirilib. Fövqəladə hallara hazırlıq çərçivəsində «İmkansızlığın və İmkanlığın Qiymətləndirilməsi» (İİQ) kitabçasının yeniləşdirilməsinə dair silsilə seminarların həyata keçirilməsinə başlanılmışdır. İlk seminar 06 noyabr 2002-ci il tarixində Bakı şəhərində keçirilmişdir. Seminar baş qərargah işçilərinin, Regional Mərkəz koordinatorlarının və Regional Mərkəzlərin İlk Yardım təlimatçılarının iştirakı ilə aparılmışdır.

## ***SAĞLAMLIQ VƏ QAYĞI***

2002-ci ildə «Cənub düşərgələrində» və Bakı şəhərində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yerlərdə səhiyyə inkişafı fəaliyyətinin həyata keçirilməsi işi davam etdirilmişdir.

Bu dövrdə çadır şəhərciklərində səhiyyə ilə bağlı olan vəziyyət barədə məlumatlar toplanaraq təhlil edilmiş, müvafiq tədbirlər görülmüş, əhali arasında maarifləndirmə işinə xüsusi diqqət yetirilmişdir.

7391 nəfərin iştirak etdiyi sanitar-maarifi aksiyaları keçirilmişdir.

2001-ci ildə sona yetmiş, Hollandiya Qızıl Xaç Cəmiyyəti tərəfindən maliyyələşdirilən «Mərhəmət» və «tənha qocalar üçün dərman preparatları» proqramları ilə əlaqədar fəaliyyət icmalara əsaslanan fəaliyyətlə əvəz olunmuşdur. Bu fəaliyyət çərçivəsində icma üzvləri arasında şəxsi gigiyena, uşaqlara peyvənd edilməsinin vacibliyi haqqında biliklər yayımlanmışdır.

İspan Qızıl Xaç Cəmiyyəti tərəfindən maliyyələşdirilən malyariyaya nəzarət üzrə ümummilli proqramına kömək layihəsi uğurla həyata keçirilmişdir.

Böyük əhəmiyyət kəsb edən tibb mövzusunda olan məşğələlərə çox sayda qaçqın cəlb olunmuşdur: Ümumilikdə ailə planlaşdırılması - 2907, qidalanma - 4218, şəxsi gigiyena və sanitariya-12237, infeksion xəstəliklər (malyariya, qrip və s.) - 3763, ilk yardım - 567, diareya - 2994, immunizasiya - 1599 nəfər iştirak etmişdir.

25 sentyabr 2002-ci il tarixində Bakı şəhəri Dərnəgül yataqxanalarında məskunlaşan qaçqınlar arasında maarifləndirmə işini davam etdirmək məqsədilə «Pathfinder» təşkilatı tərəfindən 12 nəfər tibb bacısına treyninq keçirilmişdir.

Nəticə etibarı ilə, yataqxanalarda məskunlaşan qaçqın və məcburi köçkünlər arasında fəaliyyət göstərən sağlamlıq qrupu öz ərazilərində «Ailə planlaşdırılması və reproduktiv sağlamlıq», «İnfeksion xəstəliklər» barəsində maarifləndirmə işi aparmış və buna 1297 nəfəri cəlb etmişlər.

HİV/AİDS proqramı çəpçivəsində öncə görülən işləri genişləndirmək məqsədilə respublika regionlarından olan könüllü gənclər və yeniyetmələr üçün HİV/AİDS-in profilaktikası üzrə «Bərabər-bərabərə» təlimi keçirilmişdir. 3 günlük təlimdə 12 nəfər könüllü hazırlanmışdır. Könüllülərə HİV/AİDS-ə aid biliklərlə yanaşı, təlimlərin aparılma qaydaları, aylıq hesabatların tərtib edilməsi qaydalarına da yiyələnmişlər. İştrakçılar lazımi materiallarla təchiz olunmuşlar.

7 regionu əhatə edən AİDS layihəsi çərçivəsində 43 nəfər təlimatçı hazırlanmışdır. Təlimatçılar gənclər və yeniyetmələr arasında maarifləndirmə işini aparmış, bilikləri ilə bölüşmüş, müvafiq broşürlar paylamışlar. İl ərzində bu işə 2470 nəfər cəlb olunmuşdur.

Birləşmiş Millətlər Təşkilatının HİV/AİDS proqramı çərçivəsində «AİDS-ə qarşı mübarizəyə icmaların səfərbərliyi» mövzusunda keçirilən 5 günlük treyninqdə Cəmiyyətin əməkdaşları iştirak etmişlər.

Cəmiyyət üzvlərinin Beynəlxalq Federasiyanın Azərbaycandakı nümayəndəliyinin əməkdaşları ilə birgə talassemiya xəstəliyindən əziyyət çəkənlərə təmənnasız qan verilməsi kampaniyası keçirilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinə müraciət edən bütün zavallı insanlarına dərman preparatları ilə yardım edilmişdir.

«Mercy Corps» təşkilatı tərəfindən «İcmanın inkişafı» üzrə keçirilən 2 günlük konfransda tibbi-sosial sektorun əməkdaşları iştirak etmişlər.

## *İLK YARDIM*

«İlk Yardım» proqramı Beynəlxalq Federasiyanın 2010-cu illər üçün strategiyasının əsas prioritet sahələri olan Fövqəladə hallara hazırlıq və sağlamlıq proqramlarına inteqrasiya olunub.

«İlk Yardım» proqramının əsas məqsədi və məramı əhalinin ekstremal şəraitlərdə, bədbəxt hadisələrdə və qəfil xəstəliklər zamanı həyatını xilas etmək, ixtisaslı həkim yardımı gələnədək onların ağrılarını azaltmaqdan ibarətdir.

Hesabat dövründə «İlk Yardım» proqramının əməkdaşları Beynəlxalq Federasiyanın xətti ilə Azərbaycanın rayonlarında və bir neçə xarici dövlətlərdə müxtəlif seminarlarda təcrübə mübadiləsi keçmişlər. İl ərzində 536 treyninq keçirilmiş, 4251 nəfər ilk yardım kursunu bitirmişdir.

Strategiyaya uyğun olaraq Bakıda və regional mərkəzlərdə «İlk Yardım» təlimatçıları vasitəsilə icmaya əsaslanan ilk yardım proqramı müntəzəm olaraq həyata keçirilmişdir.

Müxtəlif donorlar tərəfindən bir müddət dəstəklənən və maliyyə köməkliyi dayandırıldıqdan sonra «İlk Yardım» proqramını maliyyə cəhətdən sabit, özü-özünü maliyyələşdirən bir proqrama çevirmək istiqamətində mühüm addımlar atılmışdır. Bir sıra təşkilat, idarə, müəssisə və kompaniyalarda ödənişli «İlk yardım» kursları keçirilmişdir.

Proqramın əməkdaşları «Fövqəladə Hallara hazırlıq» proqramı çərçivəsində keçirilən seminarlarda da fəal iştirak etmişlər.

Proqramın maliyyə durumunu yaxşılaşdırmaq məqsədilə ödənişli «İlk yardım» treyninqlərinin keçirilməsi qərara alınmış və 2002-ci ilin aprel ayından bu işə başlanılmışdır. 2002-ci ilin sonunadək 105 nəfər pullu treyninqlərdə iştirak etmişlər.

Fövqəladə hallara hazırlıq proqramı çərçivəsində bütün «İlk Yardım» təlimatçıları və İdarənin bütün əməkdaşları üçün yeni proqram üzrə treyninqlər təşkil edilmişdir.

## *HUMANİTAR DƏYƏRLƏRİN YAYIMI*

## *İNFORMASİYA*

2002-cİ ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı haqqında əhali arasında bilgiləri yaymaq, Cəmiyyətin fəaliyyətini kütləvi informasiya vasitələri ilə işıqlandıraraq onun imicini yüksəltmək, yerli və xarici

informasiya agentlikləri ilə daha sıx əlaqələr yaratmaq, yerli qeyri-hökumət və beynəlxalq təşkilatlarla əlaqələr qurmaq, digər Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə informasiya sahəsində təcrübə və informasiya mübadiləsi aparmaq işi davam etdirilmişdir.

Hazırlanmış və buraxılmış əyani vəsaitlərin ümumi tirajı 82.370 nüsxə olmuşdur. Buraya illik hesabat, broşürlar, plakat və təqvimlər daxildir. Qəzetlərdə Cəmiyyətin fəaliyyətindən bəhs edən 554-dən artıq məqalə dərc edilmiş, dövlət və özəl televiziya kanallarında 90 süjet göstərilmişdir.

Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQXQACF) Cənub Düşərgəsində və Fizuli rayonunda olan fəaliyyətləri barədə 12-16 dəqiqəlik iki televiziya filmi çəkilib, bir neçə Avropa və Mərkəzi Asiya ölkələrində İsveç dövlətinin «Radiohelpen» və Türkiyənin STV televiziya şirkəti vasitəsi ilə yayımlanmışdır.

8 may Ümumdünya Qızıl Xaç / Qızıl Aypara Günü münasibətilə keçirilən bütün fəaliyyətlər yerli və Türkiyə mətbuatı, televiziya və radio vasitəsilə işiqlandırılmışdır. Norveç, Türkiyə, İran, ABŞ, Misir səfirlikləri, UMCOR və ADRA humanitar təşkilatları, Exxon Azərbaycan və Coca-Cola Beynəlxalq şirkətləri və həmçinin, 16 media nümayəndəsi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə yardım etdiyi üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin «Fəxri Fərman»ları ilə təltif olunmuşlar.

Dekabr ayının ilk 10 günü ərzində, gündə 3 dəfə «Lider» kanalında AİDS ilə mübarizə çərçivəsində çəkilmiş 5-dəqiqəlik «Özünü qoru!» filmi, həmçinin, Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında 30 dəqiqəlik sənədli film, «Space» telekanalında 2 dəfə 30 dəqiqəlik televeriliş nümayiş etdirilmişdir.

Regional mərkəzlərdə e-mail əlaqəsini yaratmaq üçün «Exxon» şirkəti tərəfindən verilmiş 7 kompüterdən altısı, 6 regional mərkəzə göndərilmişdir. Bu xəttin çəkilməsi Mingəçevir, Lənkəran və Naxçıvan regional mərkəzlərində 2003-cü ilin ilk rübündə nəzərə alınmışdır.

## ***BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN YAYIMI***

2002-ci ildə Beynəlxalq humanitar hüququn yayım şöbəsinin tərəfindən 103 seminar və təlim keçirilmiş, 59 görüşdə 3165 artıq gənc könüllü iştirak etmişdir. HİV/AİDS təlimatçıları, qaçqın və məcburi köçkünlər, Mobil Könüllü Dəstələr, işçi heyəti və üzvləri arasında, eləcə də, baş qərargah və regionlarda il ərzində Beynəlxalq Qızıl Xaç/

Qızıl Aypara Hərəkatı və Fundamental Prinsiplər mövzusunda seminarlar təşkil olunmuş, 3411 ədəd yayım materialları paylanılmışdır.

8 may - Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatı Gününə və Ümumdünya HİV/AİDS-ə qarşı stiqma və diskriminasiya kampaniyasına 170-dən artıq məktəbli arasında «Gəlin humanist olaq», «Biz sülhü seçirik», «Nəzər sal! Stiqma öldürə bilər» mövzuları əsasında rəsm müsabiqələri keçirilmişdir. Nəticədə 13 nəfər gənc rəssam təntənəli surətdə tədbir zamanı «Fəxri Fərman»la və hədiyyələrlə mükafatlandırılmışdır. Digər iştirakçılar isə fəal İştirakçı fərmanları ilə təltif olunmuşdur. Seçilmiş rəsm əsərlərinin əsasında BQXK-nin maliyyə dəstəyi ilə 5000 plakat və 3000 təqvim çap olunmuş və müxtəlif tədbirlərdə paylanılmışdır.

Cəmiyyətin Yayım, Gənclər və Könüllülər və Miqrasiya proqramının gənclər arasında apardığı fəaliyyətlə bağlı «Bir günəşin zərrəsiyik» filmində Yayım, Gənclər və Könüllüər proqramına dair ətraflı çıxış olunmuş, müvafiq məlumat, ədəbiyyat təqdim edilmişdir. Film AzTV1 və AzTV2 kanalı ilə nümayiş etdirilmişdir.

## ***BEYNƏLXALQ ƏLAQƏLƏR***

Cəmiyyətin İcraçı Direktoru sentyabr ayından 10 aylıq təcrübə mübadiləsi keçmək üçün Norvec Qızıl Xaç Cəmiyyətinə göndərilib. İki Norveç könüllüsü 10 aylıq təcrübə mübadiləsi ilə Qızıl Aypara Cəmiyyətində sentyabr ayından çalışır.

İnformasiya ilə bağlı 2 seminar, 7 treyninq keçirilib. Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti ilə bağlı internet sahəsində AzerWeb məlumat səhifəsi açılıb.

BQXQACF və BQXK ilə əməkdaşlıq edən Cəmiyyətin Türkiyə, İran, İordaniya, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Misir, Britaniya, Finlandiya, İsveç, Yaponiya, Hollandiya, Norvec Qızıl Aypara və Qızıl Xaç Cəmiyyətləri ilə əlaqələri gücləndirmiş və davam etdirilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin məsul işçiləri BQXQACF-nın konfrans və Baş Məclisində, AİDS üzrə Avropa ölkələrinin Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Tehran konfransında, QX/QA Cəmiyyətlərinin Berlin konfransında, Miqrasiya və sağlamlıq üzrə Madriddə keçirilən forumda, Əfqanıstan böhranına həsr edilmiş Ankarada keçirilən regional görüşdə təmsil edilmişdir. Cəmiyyətin işçiləri həmçinin, İtaliyanın Cesolo Lido adasında ERNA tərəfindən təşkil olunmuş PPP üzrə keçirilən və Moskva şəhərində «Yardım və İnkişaf sayəsində əməkdaşlar» adlı seminarlarda da iştirak etmişlər.

## *GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR*

Hesabat dövründə «Gənclər və Könüllülər» sektoru Cəmiyyətin digər şöbələri ilə əməkdaşlıqda öz fəaliyyətini davam etdirmişdir. Könüllülərin ümumi sayı 14.000-nə çatmışdır.

Azərbaycanda gənclər üçün HİV/AİDS xəstəliyinin «Həmyaşıddan həmyaşıda» maarifləndirmə layihəsi könüllülər tərəfindən həyata keçirilir. Layihənin məqsədi yaşa uyğun olaraq HİV/AİDS işini təsis etmək, gənclərə ağıllı (çevik) qərarlar çıxarmağa yardım etmək və HİV/AİDS-in qarşısını almaq təşəbbüsü ilə sağlam rifahı inkişaf etdirməkdir.

İyun ayında Norveç Krallığının və Norveç Qızıl Xaç Cəmiyyətinin maliyyə dəstəyi ilə 3 regional mərkəzdən Naxçıvan, Lənkəran, Sumqayıt könüllüləri, 7 regionun gənclər üzrə koordinatorları və 60 könüllü üçün 1 həftəlik təhsil yönümlü düşərgə təşkil olunmuşdur. Düşərgədə könüllülərə layihələrin yazılması, liderlik planlaşdırma kimi kurslar keçirilmişdir.

7 regionun könüllüləri üçün hər regionda 20 nəfər olmaq şərti ilə 3 aylıq ingilis dili kursları təşkil olunmuşdur.

1 sentyabr dərs ili ilə əlaqədar «World Vision», «EXXON» təşkilatı tərəfindən kömək göstərilən dərs ləvazimatları ən imkansız uşaqlara təqdim olunmuşdur.

Sentyabr ayının 11-də «Gənclər terrorizmin əleyhinədir» şüarı altında keçirilən sərgidə 150 nəfərdən artıq gənc könüllü iştirak etmişdir.

1 dekabr, Beynəlxalq HİV/AİDS-ilə mübarizə günü ilə əlaqədar noyabr ayının 24-də «Gülüstan» sarayında 100 nəfər gənc könüllüyə seminar keçirilmişdir.

1 dekabr tarixində Beynəlxalq HİV/AİDS günü ilə əlaqədar keçirilən tədbirdə 340 gənc könüllü yürüşdə iştirak etmiş, əhali arasında sorğular aparılmış, gənclər arasında rəsm müsabiqəsi keçirilmişdir.

3 dekabr əlillər günü ilə əlaqədar Şağan qəsəbəsində yerləşən 2 uşaq evinə yardım göstərilmiş, həmin yardımlar Pepsi – Cola, Coca – Cola, Makdonalds tərəfindən ianə şəkilində verilmişdir.

5 dekabr Beynəlxalq könüllülər günü münasibəti ilə könüllülər tərəfindən 5.000 ağac əkilmişdir.

Bakının Əzizbəyov rayonunun Şağan qəsəbəsində yerləşən 3 saylı uşaq evində könüllülər fəaliyyət göstərir, onlar əlil uşaqlara sosial köməklik edir, eyni zamanda Norveç Krallığının sakinləri tərəfindən 220 ədəd toxunma corab əlil uşaqlara hədiyyə verilmişdir.

# *MİQRASİYA*

Hesabat dövründə Bakı şəhərində məskunlaşan və daha çox ehtiyacı olan qaçqın və məcburi köçkün ailələrinin az yaşlı uşaqları üçün ABŞ dövlət departamentinin «Qaçqınlar, Əhali və Miqrasiya» şöbəsinin maliyyə dəstəyi ilə həyata keçirilən və təsdiq olunan iş planına uyğun olaraq fəaliyyət növləri həyata keçirilmişdir.

Sabirabad rayonunda çadır şəhərciyində məskunlaşan və daha çox ehtiyacı olan qaçqın və məcburi köçkün, məktəb yaşlı uşaqlar və digərlər üçün yeni il şənliyi keçirilmiş, 1920 nəfər uşağa yeni il töhfələri verilmişdir.

25 dekabr 2000-ci il tarixindən 31 dekabr 2002-ci il tarixədək Cəmiyyət tərəfindən həyata keçirilən 6 aylıq kompüter və ingilis dili kurslarında təhsil alan 120 nəfər qaçqın və məcburi köçkün uşaqlarına sertifikatlar verilmişdir.

Qaçqın və məcburi köçkün ailələri arasında əl işlərinin unudulmaması və onların gənc nəslə öyrədilməsi məqsədi ilə qaçqın və məcburi köçkün ailələrindən psixoloji zərbə almış insanlar üçün Bakı şəhərində 5 icmadan ibarət 8 qrup yaradılaraq psixoloji proqram layihəsi üzrə fəaliyyətə başlanılmışdır. Bu icmalarda 180 gənc və 60 ahıl yaşlı insan bu işə cəlb edilmişlər. 1 iyun «Beynəlxalq uşaqlar günü»nə, 17 noyabr «Milli Dirçəliş günü» münasibətilə əl işlərinin sərgisini təşkil eimək üçün Mingəçevir, Gəncə, Bərdə, Ağcabədi rayonlarında kompakt şəkildə yaşayan qaçqın və məcburi köçkün ailələri arasında hazırlanmış əl işləri sərgidə nümayiş etdirilmişdir. Hər iki sərgi «Xəqani» ticarət mərkəzində həyata keçirilmişdir.

2002-ci ilin mart ayının 29-30-da Sabirabad rayonunda, aprelin 28-29-da Gəncədə, iyulun 9-10-da Naxçıvanda hokümət və beynəlxalq təşkilatların iştrakı ilə, əhalinin miqrasiyası mövzusuna həsr olunmuş seminarlar keçirilmişdir. Seminarda 5 beynəlxalq təşkilatın, yerli icra orqanlarının və Dövlətqaçqınkomun, Qızıl Aypara Cəmiyyətinin yerli komitələrinin nümayyəndələri iştirak etmişlər.

Miqrasiya sahəsində təlimatçıların hazırlanması və icmanın inkişafına dair 4 regionda yanvar – may aylarında 4 seminar – məşğələ keçirilmişdir.

Miqrasiya sahəsində də Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti humanitar təşkilatlar – BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq miqrasiya təşkilatı, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, İSAR Counterpart İnternational, Danimarka Qaçqınlar Şurası, Norveç Qaçqınlar Şurası, Hollandiya Qızıl Xaç Cəmiyyəti, Yerli dövlət və qeyri-dövlət təşkilatları ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir.

Psixoloji – sosial proqram üzrə icmalara 360 nəfər cəlb olunmaqla, 80 nəfər ahıl, 280 nəfər gənc qızın psixoloji vəziyyəti yaxşılaşdırılmış və onlara əl işləri öyrədilmişdir.

Keçirilmiş seminar və treyninqlərdə 405 nəfər könüllü təlimatçı hazırlanmışdır. Miqrasiya sektorunun fəaliyyəti barəsində 3 dildə şəkilli buklet buraxılmışdır.

## ***HUMANİTAR YARDIM***

İl ərzində 7170 nəfərə humanitar yardım göstərilmişdir. 142 ailənin çox ağır və acınacaqlı vəziyyətdə yaşaması nəzərə alınaraq onlara lazımi yardım göstərilmişdir. Həmçinin, Ramanı qəsəbəsində «Azgerneft»də işləyən 25 nəfər köçkün ailəsi də, Cəmiyyətin yardımından kənarda qalmamışdır. Mərdəkan qəsəbəsində yerləşən 1 sayli lal-karlar internat məktəbində 75 nəfər uşaq və Şağan qəsəbəsində yerləşən 3 saylı əqli cəhətdən zəif olan 60 nəfər uşağa ərzaq yardımı verilmişdir.

Hesabat dövründə BQXK-nin Azərbaycandakı nümayəndəliyi Cənub Düşərgəsindəki 100 uşağa məktəb ləvazimatı və çantalar paylamış, həmçinin, uşaqları əyləndirmək üçün pantomima teatrrının artislərini də dəvət etmişlər.

Birləşmiş Ərəb Əmirliklərinin Qızıl Aypara Cəmiyyətinin maliyyə köməkliyi ilə Cənub çadır düşərgələrində yaşayan 32.000 nəfər qaçqın və məcburi köçkünə ərzaqla humanitar yardım göstərilmişdir.

## ***AXTARIŞ XİDMƏTİ***

Beynəlxalq Qırmızı Xaç Komitəsinin maliyyə dəstəyi ilə fəaliyyət göstərən Axratış xidməti öz mandatına uyğun olaraq, ikinci dünya müharibəsi və Stalin repressiyası zamanı itkin düşənlərin axtarışı, evakuasiya, dəfn olunma haqqında arayışların verilməsi, II dünya müharibəsi zamanı əsir düşən şəxslərin arxiv sənədlərinin axtarışı, ailə xarakterli Qızıl Xaç məktublarının göndərişi ilə məşğul olmuşdur.

İl ərzində axtarış xidməti tərəfindən Qızıl Xaç məktübları, itmiş sənədlərin axtarışı üçün blanklar paylanılmışdır.

Axtarışla bağlı açılan işlərin ümumi sayı 241, bağlanmış işlərin sayı 209 olmuşdur.

| | |
|---|---|
| **1. Açılmış işlərin ümumi sayı** | **241** |
| **Axtarış üzrə** | **184** |
| Azərbaycanda | 22 |
| Xaricdə | 162 |
| **Sənədlərin tələbi** | **56** |
| Azərbaycanda | 34 |
| Xaricdə | 22 |
| **2. Bağlanılmış işlərin ümumi sayı** | **209** |
| Azərbaycanda | 9 |
| Xaricdə | 53 |
| **Sənədlərin tələbi** | **147** |
| Azərbaycanda | 125 |
| Xaricdə | 22 |
| **3. Açıq qalmış işlərin sayı** | **472** |
| **Axtarış üzrə** | **343** |
| Azərbaycanda | 31 |
| Xaricdə | 312 |
| **Sənədlərin tələbi** | **129** |
| Azərbaycanda | 21 |
| Xaricdə | 108 |

## *MALİYYƏ HESABATI*

### GƏLİRLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2002-ci ildəki gəliri 1601,2 mln.manat təşkil etmişdir. Xarici donorların maliyyə dəstəyi ilə keçirilən layihələrin azalması nəticəsində 2002-ci ildə 2001-ci ilə nisbətən gəlirlər 17,5% və yaxud 338,1 mln.manat azalmışdır.

Ötən illərdə olduğu kimi, alınan gəlirlərin çox hissəsi, 1047,6 mln.manatı (65,4%) xarici donorların maliyyə dəstəyindən ibarətdir. Həmin məbləğdən 695,1 mln.manat Beynəlxalq Federasiyanın, 43,2 mln.manat Beynəlxalq Qırmızı Xaç Komitəsinin, 309,2 mln.manat isə birbaşa xarici donorların payına düşür.

Yerli donorların, təşkilatların və ayrı- ayrı imkanlı şəxslərin vəsaitinin həcmi Cəmiyyətin ümumi gəlirinin 2,2%-ni təşkil edir və 2001-ci ilə nisbətən 60,6% artmışdır. Hesabat dövründə üzvlük haqqlarından yığılan vəsait 445,1 mln.manat olmuş (27,3%) və 2001-ci ilə nisbətən 9,4% artmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Federasiyaya olan üzvlük haqqı üzrə borcunu ödəmək üçün Dövlət büdcəsindən 48,7 mln.manat (3%) ayrılmış və ödənilmişdir.

Gəlirgətirmə layihəsindən 22,5 mln.manat (1,4%) gəlir alınmış və 2001-ci ilə nisbətən 37,3% artmışdır. Hesabat dövründə digər gəlirlər 37,4 mln.manat olmuşdur (0,2%).

## XƏRCLƏR

2002-ci ildə xərclər 1590,7 mln.manat olmuşdur ki, bu da 2001-ci ilə nisbətən 15,3% və ya 288,0 mln.manat azdır. Xərclərin az olması xarici donorlar tərəfindən proqramlar üzrə ayrılan vəsaitin azalması ilə izah olunur.

Hesabat dövründə proqramlar üzrə xərclər 988,5 mln.manat (62,1%) təşkil etmişdir, o cümlədən, Beynəlxalq Federasiya nümayəndəliyi tərəfindən əlaqələndirilən proqramlar üzrə xərclər 695,1 mln.manat (43,7%), Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən əlaqələndirilən proqramlar üzrə 43,2 mln.manat (2,7%), birbaşa xarici donorlar tərəfindən maliyyələşdirilən layihələr üzrə 250,2 mln.manat (15,7%) təşkil etmişdir. Humanitar yardım şəklində zərərçəkənlərə və aztəminatlı insanlara 137,2 mln.manat məbləğində maddi yardım göstərilmişdir.

Göstərilən xərclərlə yanaşı 2002-ci ildə 48,7 mln.manat (3,1%) Beynəlxalq Federasiyaya üzvlük haqqı ödənilmiş, 485,7 mln.manat (30,5%) təsərrüfat və 67,8 mln.manat (4,3%) digər xərclər olmuşdur. Digər xərclər əsasən Cəmiyyətin balansında olan maşın və avadanlıqların amortizasiya üzrə xərclərindən ibarətdir.

# *Gəlirlər (mln.manat)*

- Beynəlxalq Federasiya
- Beynəlxalq Qırmızı Xaç Komitəsi
- Xarici donorlar
- Üzvlük haqqı
- Dövlət büdcəsi
- Gəlirgətirmə
- Digər gəlirlər




# *Xərclər (mln.manat)*

- Beynəlxalq Federasiya
- Beynəlxalq Qırmızı Xaç Komitəsi
- Xarici donorlar
- Humanitar yardım
- Üzvlük haqqı
- Təsərrüfat xərcləri
- Digər xərclər

